only
Bestsellers

Oldos Haksli Cəsur Yeni Dünya
Harper Li Bülbülü Öldürmək
Frensis Skot Fitzcerald
Möhtəşəm Qetsbi
Luiza Mey Alkot
Kiçik Qadınlar
Ceyn Ostin Qürur ve Qərəz
Aqata Kristi
Şərq Ekspresində Qətl
Teodor Drayzer Dahi
Markus Zuzak Kitab Oğrusu
Fyodor Dostoyevski
Cinayət və Cəza
Con Steynbek
Qəzəb salxımları
Corc Oruel Heyvanıstan
Marqaret Mitçel
Küləklə sovrulanlar
Marqaret Atvud
Damazlıq qızın hekayəsi
REY Bredberi Farengeyt 451
Den braun Da Vinçi Şifrəsi
Corc Oruel 1984



# TOP 16

# ƏN MƏŞHUR 16 BƏDİİ KİTAB QISA MƏZMUNDA

READ IT key to new knowledge

www.readit.az

# Top 16

## Ən Məşhur 16 Bədii Kitab Qısa Məzmunda

*www.readit.az*

**Top 16.**
***Ən məşhur 16 bədii kitab qısa məzmunda***

Bu kitab readit.az online kitab layihəsinin məhsuludur. Kitaba dünyaca məşhur 16 kitabın məzmunu daxil edilib. Sadə dildə hazırlanan kitab vaxtınıza qənaət edəcək, ən əsası həmişə eşitdiyiniz, ancaq risk edib oxumadığınız ən məşhur 16 bədii kitabın məzmununu 1 kitabda əldə edəcəksiniz.

www.readit.az
Layihə rəhbəri: Elmir Kərimli
Redaktor: Ramilə Bayramova

Səhifə sayı: 254
Tiraj: 1000 nüsxə

# KİTABIN İÇİNDƏKİLƏR


Ön söz ........................................................................ 4

**QƏBUL EDİLMƏZ "GƏLƏCƏK" –**
**DİSTOPİK DÜNYA** ........................................................ 6
1984. Corc Oruel ........................................................... 7
Farengeyt 451. Rey Bredberi ........................................ 17
Cəsur Yeni Dünya. Oldos Haksli .................................. 33
Heyvanstan. Corc Orual ................................................ 47
Damazlıq qızın hekayəsi. Marqaret Atvud .................. 62

**HƏQİQƏT AXTARIŞINDA – MİSTİKA**
**VƏ CİNAYƏT** ............................................................. 76
Şərq Ekspresində Qətl. Aqata Kristi ............................ 77
Da Vinçi Şifrəsi. Den Braun ......................................... 94
Cinayət və Cəza. Fyodor Dostoyevski ......................... 119

**XOŞBƏXTLİK İLLUZİYASI - SEVGI, İTGİ**
**VƏ HƏSRƏT** ............................................................ 135
Dahi. Teodor Drayzer .................................................. 136
Qürur və Qərəz. Ceyn Ostin ........................................ 146
Kiçik Qadınlar. Luiza Mey Alkot ................................ 158
Möhtəşəm Qetsbi. Frensis Skot Fitzcerald ................. 171

**ÖLÜMLƏ BAŞ-BAŞA - MÜBARİZƏ**
**VƏ ÜSYAN** ............................................................... 184
Bülbülü Öldürmək. Harper Li ..................................... 185
Kitab Oğrusu. Markus Zuzak ...................................... 203
Qəzəb salxımları. Con Steynbek ................................. 220
Küləklə sovrulanlar. Marqaret Mitçel ......................... 234

# ÖN SÖZ

***Əziz oxucular!***

Böyük məmnuniyyət hissi ilə sizə sayca 3-cü kitabımız olan "TOP 16" kitabımızı təqdim edirəm. İlk 2 kitabımız ən məşhur qeyri-bədii kitabların - əsasən də biznesə aid kitabların məzmununu özündə cəmləmişdi. Biz komanda olaraq düşündük ki, bədii ədəbiyyatı məzmun halına gətirərək oxuculara təqdim etmək olarmı?

Əslində bu ideya çoxdan var idi və readit.az online məzmun kitabxanasında 3 il bundan öncə 2 bədii kitab məzmununu yerləşdirmişdik. Sadəcə düşünmüşdüm ki, bədii ədəbiyyatı məzmuna çevirdikdə müəllifin oxucuya çatdırmaq istədiyini 15-20 səhifədə təsvir etmək qeyri-mümkün olar. Bu fikirdən də o zamandan bəri daşınmışdım. Bir gün qabağıma "hər bir insanın oxuması vacib 20 bədii ədəbiyyat" məqaləsi çıxdı. Maraq üçün məqaləni oxumağa başladım ki, görüm neçəsini oxumuşam. O zaman başa düşdüm ki, 20 kitabdan 19-nun həmişə adlarını eşitmişəm, ancaq risk edib oxumamışam. Anladım ki, oxumamağımın əsas səbəbi bu məşhur kitabların həcmcə həddindən artıq böyük olmasıdır. Nümunə üçün bildirim ki, "Kitab oğrusu" kitabı orijinalda 584 səhifədir. Artıq o zaman qərar verdim ki, biz növbəti kitabımızı bədii ədəbiyyat məzmunlarına həsr etməliyik. Kitabların seçimi üçün müxtəlif reytinqləri müqayisə etdik və hər reytinqdə təkrarlanan kitabların bəzilərini seçdik. Ancaq siyahıdan tam əmin deyildik. Bu zaman ağlımıza daha bir ideya gəldi. Axı bizim 5000-ə yaxın oxucumuz var, niyə də onlardan fikir almayaq?

Bizim hər iki kitabımızı almış və razı qalmış oxuculara bir məktub göndərdik və çox möhtəşəm rəylər aldıq. Yeri gəlmişkən

Fərid Rüstəmova, Vüsal Bağırova, Gülnarə Osmanovaya, Fərid Mustafayevə, Zaur Eyyubova və onlarla digər oxucularımıza kitabların seçimi ilə bağlı geri dönüşlərinə görə komandamız adından təşəkkür edirik.

Və budur tarixin 16 ən məşhur bədii kitabının məzmunu ilə qarşınızdayıq.

"TOP 16" kitabını oxumaq üçün ən azı 3 səbəbiniz var:

**Səbəb #1. Oxunması vacib 16 kitabdır.**

Həmişə eşitdiyin, ancaq risk edib oxumadığın ən məşhur 16 bədii kitabın məzmununu əldə edəcəksən.

**Səbəb #2. Vaxtına 28 dəfə qənaət edəcəksən!**

16 kitab orijinalda 6400+ səhifədir. Həmin kitabların məzmunu 254 səhifədə oxuyacaqsan.

**Səbəb #3. Sadə dildə oxuyacaqsan.**

Kitaba daxil olan 16 kitab çətin və dövrünün tələblərinə uyğun olaraq yazılıb. Biz isə məzmunları o qədər sadələşdirdik ki, bədii kitabla heç tanışlığı olmayanlar belə məzmununu anlayacaq.

Ən əsası bu kitabı oxumaqla daha savadlı, dünya görüşlü olacaqsınız.

Əlbəttə ki, məzmun heç də kitabın özünü əvəz edə bilməz. Müəllifin çatdırmaq istədiyi ideyanı orijanaldan oxuyaraq əldə edə bilərsiniz. "TOP 16" kitabı bu seçimdə sizə 100% yardımçı olacaq.

P.s. Bizə kitablarla bağlı təklif və fikirlərinizi book@readit.az ünvanına yaza bilərsiniz. Digər kitablarımızla bağlı book.readit.az saytından məlumat ala bilərsiniz.

*Hörmətlə,*
*"Readit.az" layihəsinin rəhbəri*
**Elmir Kərimli**

# QƏBUL EDİLMƏZ “GƏLƏCƏK” – DİSTOPİK DÜNYA

George Orwell



# 1984

READ IT
key
to new
knowledge

www.readit.az

# 1984

*Corc Oruel*

Corc Oruel tərəfindən yazılmış "1984" romanı bütün dövrlərin ən məşhur distopik əsərlərindən biridir. Roman gələcəkdə hökm sürən totalitar sistemdən (romanın yazıldığı vaxtı nəzərə alsaq) və sağ qalmağa çalışan tək bir adamdan bəhs edir.

Həmin adam Okeaniya ölkəsində yaşayan Uinston Smitdir. Ölkədə insanlar üç təbəqəyə bölünüb: Daxili Partiya üzvləri, Xarici Partiya üzvləri və proletarlar. Tək güc tərəfindən idarə olunan Okeaniyanın başında Böyük Qardaş adlı bir nəfər dayanır. Onu heç kim görməyib, nə vaxt doğulduğu bilinmir və o, ölümsüzdür. Amma onun dedikləri tarixin axarına zidd olsa belə, həmişə doğru qəbul olunmalıdır. Bir gün əvvəl dediyini ertəsi gün tamam başqa cür deyə bilər. Bu halda Həqiqət Nazirliyinin və Uinstonun borcudur ki, mövcud sənədləri dərhal redaktə etsin, yəni keçmişi dəyişdirsin.

Dövrün şərtlərinə uyğun olaraq hər yerdə insanları daim izləyən teleekranlar var: evlərdə, küçələrdə, iş yerlərində. Üstəlik, ailə anlayışını məhv etmək mümkün olmadığı üçün azyaşlı uşaqlar müəyyən təlimlərdən keçirlər və lazım gəldikdə, hətta ailə üzvlərinə qarşı belə, casusluq etmək üçün öyrədilirlər.

Teleekranlar və düşüncə polisləri hər zaman insanları izləyir. Bu ölkədə işdən və yatmaqdan başqa boş vaxtınızın olması cinayətdir. Çünki Böyük Qardaş sizi izləyir. İnsanların söhbətləşməsi, keçmişi düşünməyi və müzakirə etməyi qadağandır. Qəbul edilən yeganə reallıq həmin gün Böyük Qardaşın teleekran vasitəsilə dedikləridir. Ölkədə nikahdankənar münasibətlər qadağandır və evliliklər

partiyanın icazəsi ilə həyata keçirilir. Hətta uşağın planması da Partiyasının istəklərindən asılıdır.

Əsər Uinston Smitin işlədiyi Nazirliyin bufetində naharagetməyib, boş vaxtını evdə keçirmək qərarına gəlməsi ilə başlayır. O, Xarici Partiya üzvlərinin əksəriyyəti kimi hamısı bi-birinə oxşayan boz binalardan ibarət yaşayış kompleksində qalırdı. Onlar yaşamaq üçün kifayət qədər qazanc əldə edən adi, aşağı vəzifəli işçilər idi. Uinston partiyanın xəbərlərini, tarixini və bugünkü vəziyyətini yazmağa həsr olunmuş Həqiqət Nazirliyində işləyirdi. Onlar təhsil, əyləncə və proqramlaşdırılmış incəsənətlə məşğul olurdular. Uinstonun işi tarixi faktları, qəzet məqalələrini və ya Partiyanın rəyinə zidd olan hər hansı bir sənədi düzəltmək idi. Bundan başqa, Məhəbbət Nazirliyi adlı daha bir nazirlik var idi və onun vəzifəsi qanunu tətbiq edərək, Partiyanın yoldan çıxmış bütün üzvlərini tapıb öldürmək idi. Bütün nazirliklər arasında ən qəddarı da bu idi. Digər ikisi də hərbi məsələlərlə məşğul olan Sülh Nazirliyi və iqtisadiyyatla məşğul olan Bolluq Nazirliyi idi.

Uinstonun evə getmək və səhər yeməyinə qədər ac qalmağına rəğmən nahardan imtina etmək üçün xüsusi bir səbəbi var idi. Bu yaxınlarda o, gündəlik kimi tərtib edilmiş dəftər almışdı. Bu, ülgüc alarkən şəhərətrafı ərazilərdə tapdığı əntiq əşya idi. Şəhərətrafı ərazilər proletarların yaşayış məskənləri idi. Onlar partiya idarəçiliyindən uzaqda yaşayan,cəmiyyətin ən aşağı təbəqəsi idilər. Bu insanlar yoxsulluq və qanunsuzluq içində yaşayırdılar. Buna baxmayaraq, Uinston və digər Xarici Partiya üzvləri onlara lazım olan və partiya mağazalarında tapa bilmədiklərini almaq üçün oraya gedirdilər. Bunlar əsasən, ülgüc, sabun və ya corab kimi xırda ehtiyaclar idilər.

Dəftərlərin satılmasının və istifadə edilməsinin qadağan olunmağına baxmayaraq, Uinston onu yenə də almışdı. Partiya

rejimində düşünmənin tez-tez dəyişdiyi üçün vətəndaşların şəxsi mülklərinin olmağına və fikirlərini yazmağa qətiyyən icazə verilmirdi. Uinston kiçik mənzilinə gəldi və otağın küncündə Teleekranın onu görə bilməyəcəyi bir yerdə oturdu. Burada da digər mənzillərdə olduğu kimi yalnız əsas istifadə olunan mebel əşyaları var idi, lakin hər otaqda Teleekran olmalı idi. Nə vaxt izlənildiyini heç kim bilmirdi, ona görə də həmişə diqqətli olmalı idilər. Çünki bir səhv hərəkət onların silinmələrinə - öldürülmələrinə səbəb ola bilərdi.

Uinston qorxmağına baxmayaraq, dəftəri götürdü, masanın arxasında oturdu və yazmaq qərarına gəldi. Əvvəlcə nə yazacağını bilmədi, ancaq daha sonra Böyük Qardaşa qarşı nifrət hissi doğuran hər cür şey yazdı.

Qapının döyülməsi ilə yazmağını dayandırdı. O, qorxurdu ki, gələn polisdir, amma xoşbəxtlikdən bu yalnız ondan kömək istəyən yaşlı qonşusu idi. Qonşusu əri Nazirlikdə işləyən yorğun, yaşlı bir xanım idi və ən böyük qorxusu uşaqları idi. Bütün digər uşaqlar kimi onun uşaqları da Casuslarda işləyirdi. Casuslar qrupu Partiya tərəfindən yaradılıb və bəzi hallarda onlar öz valideynlərinə qarşı belə casusluq edirdilər.

İşə qayıdan Uinston "İki dəqiqəlik nifrət"ə hazırlaşmağa başladı. Bu iki dəqiqə ərzində insanlar düşmənlərini və keçdikləri müharibələri göstərən videolara baxırdılar və Partiyanın bütün üzvləri bacardıqca ucadan qışqırır, tüpürür və nifrətlərini götərirdilər. Həmin mərasim zamanı Uinston Partiyanın gənc və gözəl qadın üzvünü görür, lakin nifrət etdiyi hər şeyi: Partiya, onun bütün prinsipləri və Böyük Qardaşı təmsil etdiyinə görə ona da nifrət edir.

Burada o, özü ilə bənzər fikirlərə sahib ola biləcəyini düşündüyü Obrayn adlı adamla da tanış olur. Uinstonun bunu dəqiq bilməsi mümkün deyildi, lakin onun görünüşünə

və mərasimdəki reaksiyalarına görə hətta belə nəticəyə gəldi ki, Obrayn dövlətin ən böyük düşməni olan mənfur Qoldşteyn tərəfindən qurulan Qardaşlıq hərəkatının üzvü ola bilər.

Səhəri Uinston gündəlik məşqi etməyə çağıran qadının səsinə oyandı. Uinstonun 39 yaşı var idi, lakin o, artıq özünü qoca kimi hiss edirdi, buna görə də səhər idmanı onun üçün çətin gəlirdi. O, nə sevgi, nə də nifrət bəsləmədiyi işə gedirdi, amma bəzən yaradıcılıqla məşğul ola bildiyi üçün bunu sevgi ilə edirdi. Uinston, yeməkxanada dadsız naharını yeyir, həmkarı isə ona bütün lazımsız sözləri aradan qaldıracaq, partiya üzvünün fikrini daha da məhdudlaşdıracaq yeni nitq tərzindən danışırdı.

Demək olar ki, hər gecə Uinston əyləncəli olduğu güman edilən mütəşəkkil fəaliyyətlərdən birinə qatılmalı idi. Lakin Uinston bunu olduqca darıxdırıcı hesab edirdi. Fəaliyyətlər pulsuz idi və məcburi deyildi, lakin bura qatılanlara xüsusi diqqət yetirilirdi. Əgər Uinston gün ərzində təyin olunan hər hansı bir fəaliyyətə qoşulmasa, o, şübhəli sayılardı. Azadlığı nə qədər az olsa da, onun haqqında bir o qədər çox düşünürdü. Çünki partiya rejimində yalnız heyvanlar və proletarlar azad idi.

Uinston bir dəfə şəhərətrafı ərazilərdə gəzərkən bara daxil olur. O burada qoca bir kişi ilə tanış olur, ona pivə alır və keçmişlə bağlı suallar verməyə başlayır. Uinston hər şeyi bilmək istəyirdi – qocanın keçmiş ilə bağlı xatırlaya biləcəyi hər hansı xırda təfərrüatı belə. Ancaq təəssüf ki, qocanın xatirələri Partiyanın modifikasiya etdiyi tarixi məlumatlarla dolu idi. Məyus olmuş Uinston çıxıb gəzməyə davam edir və bir müddət sonra özünü ötən dəfə dəftər aldığı əntiq əşyalar dükanının qarşısında tapır. İçəri girəndə satıcı onu tanıyır.

Onlar köhnə vaxtlardan danışmağa başlayırlar. Bu söhbət uşaqlığındakı bəzi xatirələrini canlandırır. Uinston buradan başqa bir qadağan olunmuş şey - kiçik bir qırmızı mərcan alır və cibinə qoyur. Mağaza sahibi ona mağazanın üstündəki kiçik otağı göstərir. Həmin otaq kiçik və rahat idi, lakin ən təəccüblü cəhəti orada Teleekranın olmaması idi. Uinston buraya təkrar qayıtmağa qərar verir.

Uinston mağazadan çıxarkən, onu izləyən qara saçlı bir qız görür. Bu İki dəqiqəlik nifrət mərasimində gördüyü həmin qız idi. O, fiziki cəhətdən cazibədar idi, lakin Uinston bilirdi ki, partiyanın digər sadiq üzvləri kimi o da cinsi əlaqəni iyrənc hesab edir. Çünki Partiya aseksuallığı təbliğ edirdi. Buna görə də təqib olunduğundan narahatlıq keçirməyə başlayır. Uinston qızdan qaça bilir və evə çatan kimi qəfildən yazmaq həvəsi yaranır.

Uinston bir neçə gün sonra həmin qızın dəhlizdə ona tərəf gəldiyini görür. O, tərləməyə və özünü ifşa edəcəyindən qorxmağa başlayır. Lakin qız onun yanından keçərkən büdrəyib yıxılır. Uinston qıza kömək edir, amma o, yaxşı olduğunu deyib ayağa qalxır. Bu zaman qız onun əlinə bir parça kağız qoyur. Uinston heç kimin görmədiyinə əmin olduqdan sonra kağızı açıb oxuyur. Kağızda belə yazılmışdı:

***"Mən səni sevirəm".***

Partiya rejimində şübhəli görünmədən bir qıza yaxınlaşmaq çətin idi. Lakin Uinston qorxusuna baxmayaraq, yeməkxanada onun yanında oturmağa cəsarət edir. Onlar izdihamlı meydanda görüşməyə qərar verirlər. Beləliklə, kiminsə onların cütlük olmasından şübhələnmədən söhbət etmək imkanları olur.

Meydanda onlar şəhərin kənarındakı meşədə görüşməyə razılaşırlar – beləliklə, ən xırda şeylərin belə eşidilə biləcəyi şəhərdən və polisdən uzaqda olmaq imkanları yaranacaqdı.

Nəhayət, qızla Uinston görüşə bilirlər. Qızın adı Culiya idi və o, da Partiyaya və qaydalarına nifrət edirdi. Birlikdə olduqları müddətdə onlar bundan fiziki həzz alırd. Bu isə Partiyanın insanlara tətbiq etdiyi bədən təmizliyi ideologiyasına qarşı üsyan əlaməti idi.

Culiya və Uinston müxtəlif yerlərdə görüşürdülər; hətta bir dəfə Uinston onu əntiq əşyalar dükanındakı otaqda görüşməyə çağırır. O, eyni yerdə bir neçə dəfə görüşməyin riskli olduğunu bilirdi və başa düşürdü ki, gec, ya tez tutulacaqlar. Lakin hisslərinə müqavimət göstərə bilmirdi. Culiya görüşə gələrkən Daxili Partiya üzvlərindən oğurlanmış yeməkləri gətirirdi: bunlar çoxları üçün əlçatmaz olan şəkər, ağ çörək, mürəbbə, çay və qəhvə idi.

Culiya ilə macəra Uinstonun həyatını dəyişir. O, artıq özünü qoca kimi hiss etmirdi; nə fiziki, nə də psixi ağrıları qalmışdı. Onun daha yaxşı gələcəyə ümidi yaranmışdı. O, daha çox işləyirvə müntəzəm olaraq tədbirlərdə iştirak edirdi ki, heç kim şübhələnməsin. Bu müddət ərzində Uinston daha az qorxu və çarəsizlik hiss edirdi. Culiyaya olan sevgisi onu daha yaxşı və xoşbəxt insana çevirir, həyatını daha mənalı edirdi.

Uinston başqa bir vacib qarşılaşma yaşayır. Qardaşlıq hərəkatının üzvü olduğuna ümid etdiyi Obrayn ona yaxınlaşır. Obrayn Uinstonun yeni lüğətdən istifadə etmədiyi üçün son məqalədə bir neçə səhvi olduğunu bildirir. Uinstona onun yanına gəlməyini, çap olunmaq üzrə olan yeni lüğətin bir nüsxəsini gətirməsini və bir də belə bir səhvə yol verməməsini deyir. Uinston onun dəvətini bəhanə hesab edir, Obraynın Uinstonla tək qalıb, onu qardaşlığa qoşulmağa çağıracağını düşünürdü.

Culiya və Uinston hər yerdə özlərini cütlük kimi göstərməyin ağılsızlıq olduğunu bilə-bilə Obraynın yanına birlikdə gedirlər.

Obrayn əvvəlcə onlara sərt davransa da, lakin sonra ayağa qalxır və Teleekranı söndürür. Uinston və Culiya buna inana bilmirdilər. Bu günə qədər heç kimin onu söndürdüyünü görməmişdilər, lakin Obrayn bunun Daxili Partiya üzvlərinin imtiyazlarından biri olduğunu söyləyir. Onlara əvvəllər heç vaxt içmədikləri bir şey - şərab verir. Obrayn ona Partiyaya qarşı işləyən Qardaşlığın mövcudluğundan danışır. Onlardan cəmiyyətin bir hissəsi olmaq istəyib-istəmədiklərini soruşur. Culiya və Uinston münasibətlərini pozulmağından başqa hər şeyə razı oldularını bildirirlər. Obrayn hətta Uinstona ən böyük xalq düşməni Qoldşteynin kitabını alacağına söz verir.

Uinston əntiq əşyalar dükanının üstündəki otaqda vaxt keçirməkdən həzz alırdı. Teleekran baxmadığı üçün uzanıb qorxmadan oxuyurdu. O, gerçək dünya tarixinə aid qadağan olunmuş kitabları oxuyur, hazırkı dünyanı formalaşdıran hadisələr haqqında öyrənirdi. O, oxuyan vaxt adətən Culiya onun yanında uzanırdı.

Bir dəfə onlar musiqi haqqında müzakirə edərkən, arxalarından kəskin və sərt bir səs eşidirlər: Siz öldünüz. Onlar bir anlıq qorxudan donurlar və otaqdakı rəsmin arxasında gizlənmiş kameranın onlara baxdığını başa düşürlər. Partiya onları izləyirdi. Onlara həbs olunmaları üçün diz çökmələrini və əllərini arxalarına qoymalarını əmr edilir.

Uinstonu Sevgi Nazirliyinə aparırlar. O, təcrid olunmuş otaqların birində hərəkətsiz oturub gözləməli olur. Hətta ona qışqıran natiqin səsi olmadan hərəkət də edə bilməzdi. Uinston OBrayan haqqında düşünür, onun həbs olunduğunu bilir və onu birtəhər xilas edəcəyinə ümid edirdi.

Uzun müddət sonra otağa bir kişi daxil olur. Uinston onun Obrayn olduğunu görəndə heyrətə gəlir. Əvvəlcə onun da tutulduğunu düşünsə də, Obrayn yaxınlaşıb onu vurur.

Uinston huşunu itirməmişdən əvvəl başa düşür ki, Obrayn Böyük Qardaş üçün işləyir.

Uinston çarpayıda oyanır və ona müxtəlif aparatlar və iynələr qoşulduğunu görür. Burada onu müxtəlif üsullarla döyür və işgəncə verirlər. Lakin bu işgəncələr o qədər qəddarca idi ki, bir müddət sonra ağrıya qarşı immunitet qazanmışdı. Xeyli davam edən işgəncələrdən sonra Obrayn gəlir. Ona Partiyadan, onun dünyanı idarə etmə tərzindən danışır. O, vurğulayırdı ki, keçmişin və indinin üzərində qüdrət sahibi olan şəxs, nə olursa olsun, həqiqəti idarə edə bilər. O, ayrı-ayrı şəxslərin xatırladığı reallığı rədd edir, çünki yeganə reallıq Partiyanın təsdiq etdiyi reallıq idi. Bu, hamı üçün qanun idi və ona Uinston da daxil idi. Məsələn, Partiya Uinstona 4 barmağı olduğunu, Obrayn isə beş barmaq olduğunu söyləsə, Uinston dörd barmaq olduğunu deməli idi.

Obrayn deyir ki, Uinston bura öldürülmək üçün deyil, təkmilləşib yeni və daha uyğun bir Partiya üzvünə çevrilmək üçün gətirilib. O, partiyanın düşmənlərinin əslində mövcud olmadığını və partiyanın xalqın nifrət edəcəyi bir adama sahib olması üçün onları uydurduğunu söyləyir. Obrayn həmçinin, Böyük Qardaşın da mövcud olmadığını və sistemi təhlükəyə atanların aradan qaldırılmasında özünü göstərən bir obraz olduğunu deyir. Onlar hətta pis Partiya üzvlərini aşkar etməyə xidmət edən Qardaşlıq hərəkatını da yaradıblar, çünki Qardaşlıqla maraqlananlar sistem üçün təhlükəlidir.

Qeyri-müəyyən bir müddətdən sonra nəhayət işgəncəni dayandırırlar. Daha sonra onu sağaltmağa aparırlar. İşgəncə prosesinin təkrarlanmasından qorxan Uinston partiyanın bütün qaydalarını qəbul edir. Partiya Uinstonu azadlığa buraxmazdan əvvəl onu tamamilə sındırmağı planlaşdırırdı. Buna görə də, onu 101-ci otağa aparırlar. Burada onu ən böyük qorxusu ilə

- siçovulla hədələyirlər. Ona əgər Culiyaya xəyanət etməsə, siçovulları buraxacaqlarını bildirirlər. Uinston bacardığı qədər özü ilə mübarizə aparır, lakin sonda qorxu içində qışqırır ki, bunu ona yox, Culiyaya etsinlər. Beləliklə, onlar Uinstonun buraxılmağa hazır olduğuna qərar verirlər.

Uinston azadlığa buraxıldıqdan sonra hər şeyi xatırlayırdı, lakin Böyük Qardaşa qarşı çıxmaq ağlına belə gəlmirdi. O bir dəfə Culiya ilə qarşılaşır və onlar işgəncə zamanı bir-birilərinə xəyanət etdiklərini etiraf edirlər. Uinston yenidən qadınla olmaq və qanunu pozmaq fikrindən iyrənmişdi. İndi hər şeyi xatırlasa belə, Böyük Qardaşı sevdiyini özünə etiraf edirdi.

Ray Bradbury

# Farengeyt 451



READ IT key to new knowledge

www.readit.az

## Farengeyt 451

*Rey Bredberi*

"Farengeyt 451" romanı dünya ədəbiyyatının ən məşhur distopik romanlarından biridir. Əsərin baş qəhrəmanı Qay Monteq gələcəkdəki ABŞ-da kitabların yandırılmasına cavabdeh olan yanğınsöndürəndir.

Əsər Monteqin bir axşam işdə olarkən, işindən aldığı həzzin qısa təsviri ilə başlayır. O, "451" rəqəmi (kağızın yandığı temperatur) qeyd olunmuş dəbilqə taxır, əynində qolunda salamandr, sinəsində isə Feniksin (Simurq quşu) təsviri olan qara forma var. Yanğınsöndürmə məntəqəsindən evə gedərkən o, yeni qonşusu, Klariss Maklennan adlı maraqlı və qeyri-adi, on yeddi yaşlı gənc qızla tanış olur. Klariss dərhal onun yanğınsöndürən olduğunu anlayır və formasına heyranlıqla baxır. Klariss dayısının ona özünü "dəli" kimi təqdim etməli olduğunu öyrətdiyini deyir. Həmçinin, o qeyd edir ki, yanğınsöndürənlərin başlıca vəzifəsi yanğını söndürməkdir, onları alovlandırmaq yox. O, Qaydan işi barədə soruşur və deyir ki, o, bir-biri ilə danışmaq, gəzmək kimi qeyri-adi vərdişləri olan qəribə ailədəndir (bu dövrdə oxumaq və piyada gəzmək qanuna ziddir).

Klarissin qəribəliyi Qayı əsəbiləşdirir və o, dəfələrlə və qeyri-ixtiyari olaraq gülür. Klariss ona bir çox cəhətdən şam işığı, saat və güzgünü xatırladır. Qay özü də bilmədən ona cəzb olunduğunu hiss edir: Klariss onu öz qəribə sualları, qeyri-adi həyat tərzi, məntiqli müşahidələri və "inanılmaz eyniləşdirmə gücü" ilə valeh edir. Evə çatdıqları vaxt qız birdən ondan xoşbəxt olub-olmadığını soruşur və sonra cavabı gözləmədən binaya girib yoxa çıxır. Qay bu absurd sualı düşünərək evinə girir və bu müəmmalı qarışlaşma haqqında fikirləşir.

Nümunə hissənin sonu

Tam kitabı əldə etmək üçün => https://book.readit.az/top16

Whatsapp: 055 605 93 88